**POL STRETERN**

# DEKARTLA 90 DƏQİQƏ

Tərcüməçi:
Əyyar Cəfərli

qanun nəşriyyatı

PAUL STRATHERN

# DESCARTES IN 90 MINUTES

Fransız filosofu və riyaziyyatçısı Rene Dekart tarixdə yüz ən çox öyrənilmiş şəxsiyyətlər siyahısına daxildir. O, müasir analitik həndəsənin əsasını qoyub. Həndəsəyə koordinat anlayışını tətbiq edib. Bu anlayışın köməyi ilə sahənin üfüqi və şaquli əlaqəsinin ortaq nöqtəsi müəyyənləşib. Dekart fəlsəfi yenilikləri ilə də bəşər düşüncəsini uzaq üfüqlərə aparıb. Onun "Düşünürəmsə, demək, varam" kəlamını dünyada bilməyən çətin ki tapılsın.

Kitab Dekartın film kimi həyatı və olduqca maraqlı yaradıcılığı haqqında ən vacib məlumatları yığcam şəkildə təqdim edir. Zamana qənaət etməklə daha bir dahini tanımaq şansı verir.

**PAUL STRATHERN** **DESCARTES IN 90 MINUTES**
**POL STRETERN** **DEKARTLA 90 DƏQİQƏ**
Bakı, Qanun Nəşriyyatı, 2023, 72 səh.

Janr: non-fiction/bioqrafiya
Ölçü: 120x185 mm
Qapaq: yumşaq
Çapa imzalandı: 28.03.2023

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Əyyar Cəfərli
Redaktor: Müqəddəs Şahbazov
Korrektorlar: Ayxan Ayvaz, İradə İslamova
Texniki redaktor: Aygül Yelmarlı
Mətn dizaynı: Sevil Rafail
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-575-5

© Qanun nəşriyyatı, 2023
© Chicago: Ivan R.Dee, 1996

Bu kitabın Azərbaycan dillinə tərcümə və yayım hüquqları “Qanun Nəşriyyatı”na məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununa ziddir.

# Giriş

XVI əsrin sonlarında fəlsəfənin bir elm kimi inkişafı dayandı. Və yalnız Dekartın sayəsində fəlsəfi fikir yenidən canlandı.

Fəlsəfə ilə ilk dəfə eramızdan əvvəl VI əsrdə qədim Yunanıstanda məşğul olmağa başlayıblar. Sokrat, Platon və Aristotelin məşhurlaşdırdığı elmin qızıl əsri iki yüz il sonra başladı. Sonra isə təxminən iki min ilə yaxın, demək olar ki, heç nə baş vermədi. Hər halda, diqqət çəkən heç nə olmadı. Əlbəttə, qeyd edilən zaman kəsiyində məşhur filosoflar meydana çıxdılar. Misal kimi İsgəndəriyyəli Plotini qeyd etmək yerinə düşər. O, Platonun fəlsəfəsini təkmilləşdirməklə məşğul oldu və son nəticədə neoplatonizmi yaratdı. İpponiyalı arxiyepiskop Müqəddəs Avqustin öz növbəsində neoplatonizmi

mükəmməlləşdirməyə başladı və onu xristianlığın ehkamlarına uyğunlaşdırdı. Müsəlman alim Averroes (İbn Rüşd) Aristotel fəlsəfəsinin müəyyən hissələrini təkmilləşdirdi. Averroesin nəzəriyyəsi sonradan Akvinalı Tomas tərəfindən xristian teologiyasına uyğunlaşdırıldı. Yuxarıda göstərilən dörd nəfərin hamısı fəlsəfi təfəkkürə təkan verdi, ancaq onlardan heç biri orijinal nəsə yaratmadı. Onların əsərləri mahiyyətcə Platon və Aristotelin ideyalarının şərhi, izahı və təkmilləşdirməsindən ibarət olub. Beləliklə, bu iki bütpərəst filosof (öz bütpərəst fəlsəfələri ilə birgə) xristian kilsəsi təlimlərinin dayağı oldular. Belə intellektual "fokus" nəticəsində sxolastika meydana gəldi – orta əsrlərdə fəlsəfə elmi belə adlandırılırdı. Sxolastlar kilsə məzhəbinə əməl edirdilər və məhz orijinallığın olmaması ilə öyünürdülər. Əgər yeni fəlsəfi ideyalar meydana gəlirdisə, onlar dərhal cəfəngiyat adlandırılır və inkvizisiya məhkəməsindən sonra öz mövcudluqlarına tonqalda son verirdilər. Platon və Aristotelin nəzəriyyəsi isə tədricən xristianlığa sərfəli

şəkildə izah edilir və unudulurdu. Elə fəlsəfə də elm kimi tükənirdi.

XV əsrin ortalarına yaxın belə durğunluq təfəkkür qabiliyyəti tələb edən bütün elm sahələrini iflic etmişdi. Orta əsrlərdə kilsə şəriksiz hökmran idi. Buna baxmayaraq, dinin sarsılmaz olduğu bu nəhəng sistemdə ilk çatlar meydana gəlməyə başladı. Qəribədir ki, bu çatların əsas səbəbi Aristotel və Platonun klassik fəlsəfəsi oldu. Orta əsrlərdə itirilən və ya unudulan çoxlu elmlər dirçəlməyə başladı, bu da insan təfəkkürünün intibahına təkan verdi.

Renessans dövründən başlayaraq həyata yeni humanist baxış özünü göstərdi. Bundan sonra Reformasiya gəldi ki, o da kilsənin hegemonluğuna son qoydu. Ancaq hər halda Avropanı silkələyən bu hadisələrdən yüz il sonra da fəlsəfə sxolastika bataqlığında əzab çəkirdi. Və yalnız Dekart yeni dövrə uyğun fəlsəfi nəzəriyyə təklif etdi. Onun ideyaları dərhal bütün Avropaya yayıldı və ən yüksək zirvəyə çatdı: artıq bu ideyaları öz adı ilə çağırmağa başladılar – "kartezian", "dekart", "dekartçı".

## Dekartın həyatı və yaradıcılığı

Dekart həyatında heç vaxt faydalı işlə məşğul olmayıb. O öz-özünü, ya əsgər, ya riyaziyyatçı, ya da tənbəl adam adlandırıb. Sonuncu təyinat onun həyat qavrayışına və sosial vəziyyətinin təsvirinə daha çox uyğun gəlir. Uşaqlıqdan o, avaralığa meylli olub ki, bu da vaxt ötdükcə vərdişə çevrilib. O öz gəliri ilə yaşayıb, günorta yuxudan oyanıb və ağlına gələn kimi ətrafda veyllənib. Onun həyatı dramatik hadisələrsiz, arvadsız, nəcib oxucular tərəfindən tanınmadan (eləcədə qəbul edilmədən) keçib. Bununla belə, Dekart, Aristoteldən sonra mübahisəsiz olaraq ən nadir filosofdur.

Dekart meydana çıxan məqamda Renessans dövründə yaranan yeni humanist baxışlar bütün Avropada yayılmışdı, Reformasiya

isə katolik kilsəsinin hegemonluğuna son qoymuşdu. Ancaq fəlsəfənin yeni dövrünün əsasını məhz Dekart qoydu. Bu andan fəlsəfədə birinci yerə insan şəxsiyyəti və insan idrakının öyrənilməsi qoyulur. Yalnız nisbətən yaxınlarda fəlsəfə elminin bu əsas müddəaları onun məzmunundakı leksikasını və təhlili əvəz edib.

Rene Dekart 31 mart 1596-cı ildə Fransada, Turdan otuz mil aralıda, Krez çayı vadisindəki balaca Lae şəhərində anadan olub. Bu yer indi Dekartın adını daşıyır və əgər siz ora getsəniz, filosofun doğulduğu evi, xaç suyuna salındığı XII əsrə aid Müqəddəs Georgi kilsəsini görə bilərsiniz.

Rene ailədə dördüncü uşaq olub, anası bir il sonra növbəti doğuş zamanı ölüb. Dekartın atası İoaxim Bretan Ali məhkəməsində hakimlik edib. Məhkəmə Renn şəhərində yerləşib, 140 mil aralıda, əslində, İoaxim evdə yarım ildən az yaşayıb. O, tezliklə yenidən evlənib və Reneni saxlamaq, tərbiyə vermək üçün nənəsinin yanına göndərib. Ancaq orada Rene yalnız öz dayəsinə bağlı olub və həyatının axırına kimi onu saxlayıb.